**MƏCID XƏLİLİ**
*(Əlyazmalar İnstitutu)*

# ELXANİLƏR DÖVRÜNDƏ TİBB ELMİNİN İNKİŞAFINDA XACƏ RƏŞİDƏDDİN FƏZLULLAHIN XİDMƏTİ

Elxanilər sülaləsi hakimiyyəti dövrü istər mədəni, ictimai, siyasi və istərsə də hərbi baxımdan çoxlu qırğınlar, sui-qəsdlər və dövlət xadimləri əleyhinə gizli işlər aparılması cəhətdən diqqəti cəlb edir. Cürətlə söyləmək olar ki, tarixin bu mərhələsi İran tarixinin ən faciəli dövrlərindən biridir.

Bu dövrün yüz illik tarixinə (656-756 h.q.) nəzər saldıqda görürük ki, İranda elxanilərin hakimiyyətinin möhkəmlənməsində, yəni Hülakü xan bu dövrdə güclü iqtidar yaratdığı kimi, Qazan xan və ondan sonra da Ulcaytu və Əbu Səid Bahadır divan və qələm əhli olub, hökumətin möhkəmlənməsində xeyli işlər görmüşlər. Lakin Qazan xanın İslamı qəbul etməsilə vəzirlik elementi xüsusi yer tutdu. Üç Elxani hakimi – Qazan xan, Ulcaytu və Əbu Səid zamanı məmləkəti idarə etməkdə vəzirlərin rolu çox mühüm və əsaslı oldu. Necə ki, onların atdığı addımlar ölkə işlərində geniş islahatlara səbəb oldu. "Dəstirul" kitabının müəllifi Naxçıvaninin dediyinə görə bu islahatlar Cəlaililər (762 h.q.) səltənətinin başlanğıcında da müəyyən vaxta kimi olmuşdur. İslahatlar Qazan xan dövründə Elxanilərin ikinci vəziri Rəşidəddin Fəzlullahın köməkliyi ilə həyata keçirilirdi. Burada onun həyat və fəaliyyəti ilə bağlı bəzi məlumatları verməyi vacib bilirik.

**Xacə Rəşidəddin Fəzlullah Həmədaninin həyatı:**

Xacə Rəşidəddin İran tarixinin və Elxanilər dövrünün məşhur vəzirlərindən Əmadəddin Əbulxeyr Alinin övladı Müvəffəquddövlə Əbülfərəc Ali ibn Əbi Suca Həmədaninin nəvəsidir. Onun babası Müvəffəquddövlə öz zamanının ədib və həkimlərindən idi. Gözəl şeirlər söyləyirdi və Xacə Nəsirəddin Tusi ilə birgə bir müddət Ələmut qalasında ismaililərin fədailərinin yanında həbsdə olmuşdur. Qala təslim olandan sonrada Müvəffəquddövlə Xacə Nəsirəddin Tusi kimi monqollara qoşuldu və Həmədanda yaşadı. Ömrünün sonunadək həyatını tibbə və divan tərtibatı işlərinə həsr etdi. Ondan sonra bu işləri oğlu Əmadəddin davam etdirdi və Hülakü xanın sarayında böyük nüfuz və vəzifə sahibi oldu.

Onun övladı Xacə Rəşidəddin 647 h.q. ilində Həmədanda dünyaya gəlmişdir. O öz ailəsində əvvəlcə tibb elmini öyrənmiş, sonra isə başqa elm və fənləri mənimsəmişdir.

Elxanilər hakimiyyətində Xacə Rəşidəddinin apardığı böyük mədəni quruculuq işləri haqqında mənbələrdə məlumat verilmişdir. Abağa xan zamanından o, padşahın diqqətini cəlb edir və öz zamanının ən məşhur həkimləri sırasına daxil olmuşdur. Əzğunun dövründə Səduddövlə Yəhudinin vasitəsilə qüdrəti daha da çoxaldı. Necə ki divan əmirləri bir çox məmləkət işlərində onunla məşvərət edirdilər. Bu dövrdə onun şöhrəti o yerə çatdı ki, Elxani dövlətinin şöhrətini yaymaq, tanıtmaq üçün Əzğun tərəfində dəniz yolu ilə hind sultanlarının yanına getdi və onu ehtiramla qəbul etdilər. Xacə Rəşidəddin bu səfərdə özünün dediyinə görə bəzi mənfəətli və nadir tapılan ədviyyələri İrana gətirdi. Geyxatu xan dövründə də vəzirlik ixtiyarını ona həvalə etdilər, amma Xacə bu dəfə vəzirliyi qəbul etmədi və yüksək məqamlı bir həkim kimi sarayda xidmət etdi.

Rəşidəddinin siyasətlə məşğul olmağı Qazan xanın sultanlıq və Sədrəddin Xalidi Zəncaninin vəzirlik dövründə başlayır. Xacə Rəşidəddin Xacə Sədrəddin Xalidi Zəncaninin əlaltısı kimi divan işlərini öz öhdəsinə almışdı. Buna görə də Xacə Sədrəddinə

qarşı olan məkrlərin icra olunmasında Rəşidəddin haqqında şübhələr yaranmışdı. Sarayda yaranmış məkrli münasibətlər sonda Sədrəddin Xalidi Zəncaninin ölümü ilə nəticələndi. Rəcəb ayında 697 h.q. ilində ölümündən bir az qabaq Qazan xan öz vəzirliyini Sədudiddin Saveci və Rəşidəddin Fəzlullah Həmədaninin müştərəkliklərinə tapşırdı. Bu iki nəfər eyni hüquqa malik böyük Elxanilər dövlətinin idarəçiliyini öhdəlrinə almışdırlar. İki vəzir Qazan xan zamanında və ondan sonra Ulcaytu xan dövründə də vəzirlik məqamında qaldılar. Lakin Sədudiddin Saveci Ulcaytunun hökmü ilə azad olundu, sonra öldürüldü və Rəşidəddinin xahişi ilə Tacəddin Əlişah vəzir seçilərək, Rəşidəddinin həmkarı oldu.

716 h.q. ilində Ulcaytunun ölümündən sonra, oğlu Əbu Səid Bahadur onun canişini oldu. Rəşidəddin və Tacəddin Əlişah vəzirlik məqamında qaldılar. Ulcaytunun ölümündən bir il qabaq iki vəzir arasında ixtilafatlar yarandı. Mirxandın yazdığına görə ixtilafa səbəb bu idi ki, Əlişah divan işlərinin bir qismini məşvərətsiz icra edirdi və Rəşidəddin də bunlara dözə bilmirdi. İş o yerə çatdı ki, Sultana şikayət etdilər və Xacə Rəşidəddin ixtilafları aradan qaldırmaq üçün 3 məsləhət verdi. Birincisi bu idi ki, bütün divan işlərini öhdəsinə ala, ya da bütün işlərdən birdəfəlik əl çəkə. İkincisi budur ki, Sultanın bütün vəzirlərə aid olan mühüm işləri ona tapşırılsın, o da imkan dairəsində onun öhdəsindən gəlsin. Üçüncüsü, məmləkət iki yerə bölünsün və hər kəs öz hissəsinə nəzarət etsin ki, vəzirlərin təmiz niyyəti padşaha və əmirlərə aşkar olsun.

Amma Ulcaytu xan Rəşidəddinin məsləhətini qəbul etmədi və iki vəzir Ulcaytunun ölümünə kimi biri-biri ilə yola getməli oldular. Amma Əbu Səidin iş başına gəlməsi ilə ixtilaflar başlandı. Rəşidəddinin Əmirçobana yaxınlığı monqol hakimlərindən və Əbu Səidin padşahlığa çatmamışdan əvvəl naib – səltənəti habelə Rəşidəddinin oğlu Əbdül-Teyf ilə dostluğu Əlişahın küdurətini artırdı və sonda Rəşidəddini monqol şahzadəsinin xanımları ilə münasibət qurmaqda ittiham etdi və bu işəgörə Xacə Rəşidəddini vəzirlikdən uzaqlaşdırdı. Ondan sonra Xacə Rəşidəddin siyasətdən uzaqlaşdı və yalnız Rəşidiyyə idarə kompleksinin dörddə birini öhdəsinə aldı. Amma sonradan Əmirçobanın təkidi ilə yenidən vəzirliyi qəbul etdi. Əlişah çalışırdı Əmirçobanla Xacə Rəşidəddin arasında ixtilaf yaratsın. Xacə Ulcaytunun ölümündə şübhəli bilinir və oğlu Əzudiddin İbrahim ilə əlbir olub Ulcaytunun saqisi vasitəsilə onu zəhərləyir və onun ölümünə səbəb olurlar. Əbu Səidin göstərişi ilə Rəşidəddin Fəzlullah və onun oğlu İbrahimin ölüm hökmü verildi və ilk öncə Rəşidəddinin gözləri qarşısında 18 yaşlı oğlunun boynu vuruldu və sonra Xacəni iki yerə böldülər. Bu hadisə 718 h.q. ilində Çərkəz adlı bir kənddə baş verib. Sonra Rəşidəddinin cəsədi Rəbi-Rəşidiyyəyə aparılır və orada torpağa tapşırılır.

Qazan xan dövründə ölkədə ən böyük elmi nailiyyətlər Xacə Rəşidəddin Həmədani tərəfindən həyata keçirilmişdi. Onun yaratmış olduğu elm-tədris mərkəzi həm Rəşidiyyə, həm də Rəbi-Rəşidi adlanırdı. Rəbi-Rəşidinin çox şöbələri var idi, həmin şöbələr bunlar idi:

**Daruş-şəfa (xəstəxana)**

Bura elə bir yer idi ki, orada həkimlər həm xəstələri müalicə edirdilər, həm də tibb elminin təlim-tədrisi ilə məşğul idilər. Burada həkimlər iki növbəli və yarım növbəli işləyirdilər. Bütöv növbəli həkimlər – ümumi xəstəliklər üçün bir həkim, bir həkim də köməkçi, bir nəfər göz həkimi və bir neçə cərrah sınıqçı var idi ki, bu həkimlər səhər dərs deyirdilər və günortadan sonra həftənin birinci və dördüncü günlərindən başqa Rəbi-Rəşidinin işçilərinin müalicəsi ilə məşğul olurdular. Bu həkimlərin hamısı Rəbi-Rəşidinin sakinlərinə xidmət edirdilər və onların Rəbi-Rəşididən kənarda işləmək haqqı yox idi. Bu həkimlərin yanında digər bir həkim də var idi ki, müalicə və dərs işlərində onlara kömək edirdi. Həmin həkimlər Rəşidiyyəninin ən gözəl məhəllələrində yaşayır-

dılar. Yarımştat həkimlər isə əsasən yad ölkələrdən idilər. Onların ayrıca evləri yox idi və elə oradaca, yəni müalicəxanada ayrılmış məxsusi otaqlarda yaşayırdılar.

Rəbi-Rəşidi xəstəxanası iki hissədən ibarət idi. Bir hissəsində adi xəstələr, o biri hissəsində isə yolxucu xəstəlikləri olanlar yatırdılar. Aptek xəstəxananın yaxınlığında idi ki, Rəbi-Rəşidin vəqfnaməsində yüzlərlə böyük dərman küplərinin aptekində olmasına işarə olunur. Hər bir küpdə neçə illərin istifadəsi üçün növbənöv dərmanlar saxlanılırdı. Hər bir küpün üstünə dərmanın adı yazılıb yapışdırılmışdı.

**Darül-məsakin (Fəqirlər evi)**

Darül-məsakin Rəbi-Rəşidin daxilində deyildi. Ola bilsin ki, Rəbi-Rəşidiyə bitişik idi. Burada Təbrizin fəqir və miskinlərinə gündə bir dəfə olmaqla yüz nəfərə yemək verilirdi və eyni zamanda fəqirlərə başqa xidmətlər də göstərilirdi.

**Rəbi-Rəşidi kitabxanası (Beytül-kütub)**

Bu kitabxana böyük günbəzin iki tərəfində tikilmişdi və yüz cildlərlə nəfis Quranlar burada qorunurdu. Kitabxanada olan kitabların hamısı siyahıya alınmışdı və daxil olan kitablar oranın məsul şəxsi vasitəsilə möhürlənirdi və sonra kitabların siyahısı oxucuların ixtiyarına verilirdi ki, kitabxanada olan kitablardan istifadə edə bilsinlər.

Kitabxanadan istifadə qaydası bu halda idi ki, tələbələr və müəllimlər ehtiyacı olan kitabları "oxu zalında" oxuya bilərlərdi və əgər kimsə kitabxanadan kitab götürmək istəsəydi, gərək onun qiyməti müqabilində pul verəydi. Kitabın verilmə müddəti maksimum bir ay idi və ondan sonra kitab gərək mütləq qaytarılmalı idi. Rəbi-Rəşididə hətta Təbrizdən olmayan şəxslər də kitabxanadan istifadə edə bilərdilər. Bir şərtlə ki, kitabı Təbriz və onun ətrafından qırağa çıxartmasınlar.

### Xəstəxanada təlim

Rəşidəddin tanınmış bir həkim olmaqla bərabər, tibb elminə çox böyük xidmətlər göstərmişdi. Bu ixtisasın tələbələri Rəbi-Rəşididə 5 il müddətində təhsil alırdılar. Bundan başqa hər bir həkim iki nəfərə ya tibb dərsi, ya da əczaçılığı öyrətməli idi. Tibb fakültəsinin tələbələri nəzəri və təcrübi formada dərs oxuyurdular. Belə ki, Daruş-şəfadan aldıqları təhsildən əlavə xəstələrin müalicəsi zamanı həkimlərə kömək edir və hətta xəstələrin qayğısına da qalırdılar.

Başqa tələbələr kimi tibb tələbələri də gecə-gündüz Rəbi-Rəşididə qalırdılar və xəstəxananın bütün imkanlarından faydalanırdılar. Sevilya, Əndəlus, Kordova, Tunis və s. yerlərdən gəlmiş tələbələr burada təhsil alırdılar. Xacə Rəşidəddin bu tələbələrdən hər birinə təqaüd də ayırırdı.

### Rəbi-Rəşidin idarəçilik sistemi

Rəbi-Rəşidiyə başçılıq və onun idarəçiliyi yarandığı vaxtdan, yəni 699 h.q. ilindən Xacə Rəşidəddinin qətlinə kimi, təqribən 20 il onun öz üzərinə düşmüşdü. Rəbi- Rəşididə 3 mühüm vəzifə var idi – müdir, müfəttiş və nazir. Xacə Rəşidəddinin ölümündən sonra isə bu vəzifələrə onun övladları rəhbərlik etmişdirlər. Rəbi-Rəşidin vəqfnaməsində qeyd olunub ki, bu vəzifəyə vəqf edənin kişi nəslindən olan ardıcılı seçilməlidir, yox əgər bunların arasında layiqli bir kəs olmasa, o zaman Təbrizin məşhur şeyxlərindən biri seçilməlidir.

Beləliklə, nəticədə deyə bilərik ki, Xacə Rəşidəddin Elxanilər dövlətində öz 20 illik vəzirlik müddətində bir ideoloq kimi çalışmış və qalib gəlmiş monqollarla İran camaatı arasında həmişə əlaqə yaratmağa səy göstərirdi. O çalışırdı ki, özünün islahatları ilə Səlcuqilər hakimiyyətinin idarəçilik ənənələrini Qazan xan dövründə həyata keçirsin. Xacə yazılarında dəfələrlə Səlcuq dövlətini və Nizamülmülkü xatırlamışdı. Qazan xan dövründə o çalışırdı ki, ölkəni yenidən qursun. Camaat rifah içində yaşasınlar və

monqolların rolu ölkədə az olsun. Onun əsas ideyalarını bu cür xülasə etmək olar: 1) Elxanilər hökuməti ilə mərkəzləşmiş bir dövlət yaratmaq; 2) monqol xanlarını müsəlman feoddalları ilə yaxınlşdırmaq; 3) əkinçilik iqtisadiyyatını dirçəltməklə ölkənin maliyyə durumunu yaxşılaşdırmaq; 4) məhkəmə işlərində islahatlar və rüşvətə qarşı mübarizə; 5) mərkəzləşmiş qəbilə ünsürləri, özünü idarəetmə məhəllə və köçəri qəbilələrlə mübarizə aparmaq; 6) orduda islahatlar və yollarda əmin-amanlıq; 7) tibb elminin inkişafı, onu öyrətmək və ölkədə təhsil idarəsinin yenilənməsi və ciddi məmuraların seçilməsi.

Xacə Rəşidəddinin əməlləri oğlu Qiyasəddin Məhəmməd tərəfindən davam etdirilmişdir. Ancaq Qiyasəddinin Rəbi-Rəşidini daha da inkişaf etdirmək və yenidən qurmaq uğrunda apardığı səmərəli işlər yarımçıq qalmışdır. Tacəddin Əlişah Rəşidəddinin qətlinə və Rəbi-Rəşidin məhv olmağına o qədər sevinmişdi ki, həmin ildə (718 h.q.) iki qızıl həlqəni, hər biri 1000 misqal ağırlığında olmaqla, Kəbəyə göndərdi ki, onu qələbəsi naminə Allah evindən assınlar.

İndiki dövrdə mədəniyyətimizin, elmimizin inkişafında böyük rolu olmuş, Yaxın Şərqdə möhtəşəm bir elm mərkəzi yaratmış Xacə Rəşidəddin kimi şəxsiyyətlərin keçdiyi həyat yolu və elmi quruculuq fəaliyyəti daha ətraflı öyrənilməli və araşdırılmalıdır.

### *MƏNBƏLƏR:*

1- رشيد الدين فضلا... همداني، سوانح الافکار، به كوشش محمدتقي دانش پژوه، تهران، انتشارات دانشگاه تهران، 1381
2- اشپولر، برتولد. تاريخ مغول، ترجمه محمود مير آفتاب، انتشارات امير كبير، تهران، 1356
3- مير خواند، ميرمحمد بن سير برهان الدين خاوند شاه، تاريخ روضهالصفا، به كوشش عباس زرياب، تهران، انتشارات علمي، 1373
4- رشيد الدين فضلا... ، جامع التواريخ، به كوشش دكتر بهمن كريمي، تهران، انتشارات اقبال، چاپ سوم ، 1367

**МАДЖИД ХАЛИЛИ**
***(Институт рукописей)***

## РОЛЬ ХАДЖЕ РАШИДАДДИНА ФАЗЛУЛЛАХА В РАЗВИТИИ МЕДИЦИНЫ В ЭПОХУ ЭЛЬХАНИДОВ

В эпоху Эльханидов произошли значительные изменения в жизни государства, в том числе, были проведены реформы в культурной жизни страны. Основную роль в проведении этих реформ сыграл визирь государства Эльханидов Рашидаддин Фазлуллах. По его инициативе в начале XIV в. в столице государства городе Тебризе был основан грандиозный научный, образовательный и культурный центр «Раби-Рашиди» или «Рашидиййа». Это был один из крупнейших научно-образовательных центров своего времени. Этот уникальный на Востоке и Западе центр славился искусными учителями, превосходными учеными и тысячами студентов, прибывших сюда из разных стран мира. В центре находилась огромная библиотека с книгами на разных языках, больница, аптека, университет (медресе), приюты для бедных и одиноких лиц и т.д.

**MAJID KHALILI**
***(Institute of Manuscripts)***

## THE ROLE OF KHAJE RASHIDADDIN FAZLULLAH IN DEVELOPMENT OF MEDICINE IN THE ELKHANID ERA

In the Elkhanid Era the important changes appeared in the life of the country, including reforms in the cultural life. The main part in these reforms played the Great Visir of the Elkhanid State Fazlullah Rashidaddin. With his initiative in the beginning of the $14^{th}$ AD in the capital of the state Tabriz was founded the great scientific, educational and cultural center Rabi-Rashidi or Rashidiyya. It was the largest scientific-educational center of the time. This unique in the Orient and Europe center was famous in the world by its skilled teachers, good scholars, thousands of students which arrived from various countries of the world. The center was provided with great library with books in different languages, hospital, and special free of charge "houses for the poor" which served for poor and single persons.

***Rəyçilər: t.e.d.Q.Ə.Əliyev, t.e.d.Q.S.İsmayılov.***
***AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi Şurasının 02 dekabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №11).***